# Azərbaycan Respublikası Xalq Parlamenti

## millət vəkilinin (namizədin) etik davranış kodeksi

Azərbaycan Respublikasında 30 illik müstəqillik dönəmində Konstitusiyada nəzərdə tutulan xalq hakimiyyəti və dövlətin əsasları ilə bağlı norma və prinsiplərin kobud surətdə pozulması, respublika ənənələrindən faktiki imtina edilməsi, hakimiyyətin mənimsənilməsi və bir əldə cəmlənməsi, ölkədə mütləqiyyət rejiminin qurulması, keçən müddət ərzində azad və ədalətli seçkilərin keçirilməməsi Azərbaycan Xalq Parlamentinin təsis edilməsini zəruri etmişdir. Azərbaycan Xalq Parlamentinə seçilmiş və fəaliyyət göstərən deputatlar (namizədlər) Azərbaycan xalqının siması və təmsilçisi olduğu üçün onun davranışı aşağıdakı qaydalara uyğun olmalıdır.

1. **Parlament iclaslarında davranış qaydaları:**
    1.1. Hər bir deputat (namizəd) iclaslara vaxtında qatılmalıdır.
    1.2. İclası idarə edən şəxs AzXP-nin Reqlamentinə uyğun olaraq prosedur təlimatlarına riayət etməlidir.
    1.3. İclaslarda Azərbaycan Respublikasının Dövlət bayrağı istisna olmaqla, heç bir bayraq və ya simvol görüntülənə bilməz.
    1.4. "Eyni zamanda yalnız bir nəfər danışa bilər" qaydasına riayət etməlidir.
    1.5. Danışmaq üçün növbə gözləmək, söz verilmədən danışmamaq.
    1.6. Sözünü bitirdikdən sonra natiq öz mikrofonunu bağlamalıdır və mikrofonların bağlanması tələbinə riayət etməlidir.
    1.7. Bu maddələri hər dəfə iclas başlayarkən sədrlik edən şəxs oxumalıdır.

2. **Debatlar zamanı deputatların (namizədlərin) etik normaları:**
    2.1. Demokratik proseslər debatlarla başlayır, ədalətli və şəffaf seçkilərlə başa çatır. Hər hansı bir mövzu və ya qanun layihəsi müzakirə edilərkən debatlara yer ayrılır.
    2.2. Debatlar dövlət dili olan Azərbaycan dilində aparılır. Namizədlər seçicilərə öz ana dilində də müraciət edə bilər, eyni müraciəti dövlət dili olan Azərbaycan dilində də etməlidir.
    2.3. Debatda iştirak edən deputatlar (namizədlər) mövzuya uyğun olaraq, əsaslandırılmış şəkildə fikir bildirməlidir.
    2.4. Debatda qarşı tərəfin şəxsinə ünvanlanmış fikirlər qəbul edilməzdir.
    2.5. İrad və təkliflər əsaslandırılmış şəkildə təqdim edilməlidir.
    2.6. Hər hansı bir mövzu və ya qanun layihəsi müzakirə edilərkən, mövzunu təqdim edən deputata və ya deputat qrupuna suallar ünvanlana bilər. Ünvanlanan suala cavab vermək mövzunu və ya qanun layihəsini təqdim

edən deputat və ya deputat qrupunun vəzifəsidir. Sual verəni "qane etmək" və ya "razı salmaq" heç bir deputatın vəzifəsi deyil.

2.7. Debatlar zamanı təhqir ritorikası qəbul edilməzdir.

2.8. Milli, irqi, etnik, dini, cinsi və ideoloji müstəvidə nifrət ritorikası yol verilməzdir və qarşısı dərhal alınmalıdır. Heç kim milli, irqi, etnik, dini, cinsi və ideoloji mənsubiyyətinə görə diskriminasiya oluna bilməz. Parlament müxtəlif ideologiyaların təmsil olunduğu bir təsisatdır, deputatlar (namizədlər) öz ideoloji xətləri üzrə problemləri dilə gətirə və çıxış yollarını təklif edə bilər.

2.9. Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinə qarşı hər hansı bir çağırış və ya fəaliyyət yol verilməzdir!

2.10. Zorakılığa, iğtişaşlara, terrora, vətəndaş qarşıdurmasına çağırış və belə fəaliyyətlər yol verilməzdir!

2.11. Debatlar zamanı söz demək istəyən deputatlara (namizədlərə) verilən vaxt iclas sədri tərəfindən reqlamentə uyğun müəyyənləşdirilir.

**3. Deputatın (namizədin) ictimai davranış kodeksi:**

3.1. Fəaliyyətində, internet və televiziya kanallarında çıxışlarında, beynəlxalq təşkilatlarda iştirakında, habelə insan kütlələri ilə görüşlərində danışıq və davranışını milli mənəvi dəyərlərə uyğunlaşdırmalıdır.

3.2. Çıxışlarda və yazılarda Azərbaycan dilinin normalarına riayət edilməlidir.

3.3. Peşəkar fəaliyyətində Azərbaycan Xalq Parlamentinin adına və nüfuzuna xələl gətirəcək davranışlara yol verməməlidir.

3.4. Öz davranışı ilə cəmiyyətə nümunə olmalıdır.

**4. İstənilən virtual sosial qruplarda iştirak edən deputatların (namizədlərin) etik davranış qaydaları:**

4.1. Qrupların öz qaydaları var, "inzibatçı" hüquqlu şəxslər həmin qaydalara riayət edilməsinə nəzarət edirlər.

4.2. Qruplarda yalnız aparılan fəaliyyətə uyğun yazılar və paylaşımlar edilməlidir.

4.3. Qruplarda da etik davranış kodeksinin tələblərinə riayət etmək zəruridir.

**5. Bu sənəddə yazılmış etik davranış normalarını pozan deputatlar (namizədlər) AzXP-nin Nizamnaməsinə uyğun olaraq məsuliyyət daşıyır.**